**COP29: "İqlim elmi" Olimpiadasının mükafatlandırma mərasimi keçirilib**

Bakıda COP29 çərçivəsində "İqlim elmi" Olimpiadasının mükafatlandırma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, 2021-ci ildən bəri həyata keçirilən bu qlobal təşəbbüs iqlim problemlərinə cavab tapmaq məqsədilə 12-24 yaşlı gəncləri bir araya gətirərək, onların fəallığını təşviq edir. BMT tərəfindən təşkil olunan olimpiada minlərlə gənci bu ciddi mövzu ətrafında düşünməyə sövq edir.

Olimpiadanın 3 əsas qalibi tədbir çərçivəsində "Ted-talk" üslubunda təşkil olunmuş təqdimatlarla öz layihələri barədə danışıblar.

Yaşıl Zonada təşkil olunan mükafatlandırma mərasimində "Climate Science Olympiad"ın rəhbəri Alexandra Sfez, CSO-nun Azərbaycandakı rəsmi nümayəndəsi və "Global Olympiad Center"in (GOC) direktoru Xəyal İbrahimzadə iştirak ediblər.

Alexandra Sfez çıxışında İqlim olimpiadasının yarandığı gündən etibarən böyük iştirak sayı ilə yadda qaldığını, hazırda 196 ölkədən 150 mindən çox iştirakçının bu nüfuzlu olimpiadada iştirak etdiyini bildirib. Qeyd edib ki, bu il 38 min iştirakçı dörd mərhələdən ibarət olan olimpiadaya qatılıb.

Açılış nitqlərindən sonra təltifetmə mərasimi başlayıb. "CSO 2024"-ün qaliblərinə - Jack Cole (Amerika Birləşmiş Ştatları), Morgan Cole (Amerika Birləşmiş Ştatları), Deepa Shanmugam (Amerika Birləşmiş Ştatları) və John Karakoulasa (Kanada) mükafatlar verilib. Qaliblərə CSO tərəfindən 30 min ABŞ dolları məbləğində pul mükafatı və Avstraliyaya 1 həftəlik səyahət təqdim olunub. Azərbaycan tərəfindən isə milli ornamentlərimizlə bəzədilmiş xüsusi hədiyyələr təqdim edilib.

COP29 çərçivəsində keçirilən CSO olimpiadası UNESCO, "Learning Planet Alliance", "Learning Planet Institute" və "10 Billion Solutions" tərəfindən dəstəklənib.

Qeyd edək ki, COP30 çərçivəsində keçiriləcək "CSO 2025"-in seçim turu yanvar ayında başlayacaq.

**AZƏRTAC**
**2024, 17 noyabr**